# 12 dekabr ümummilli liderimiz Heydər Əliyevin anım günüdür




*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 244 (21.396)

12 dekabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əbədiyaşar lider



***Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanmışdır.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə sovet dövründə xalqımızın milli mənlik şüurunun inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda böyük dövlət xadimi Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkmiş, 1969-cu ildə Azərbaycan KP MK-nın plenumunda ana dilində çıxış etməklə dilimizi, tarixi irsimizi yaşatmağın zəruriliyini böyük müdrikliklə göstərmişdi. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə dövlət dili kimi təsbit olunması və qorunub saxlanılması sahəsində atdığı addım o dövrdə böyük cəsarət tələb edirdi. Sözün əsl mənasında, o illərdə Azərbaycan xalqı başqa mədəniyyətlərin təsirinə düşməkdən xilas olmuş, milli dəyərlərimiz özümüzə qaytarılmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra xalq təsərrüfatının bütün sahələrində sürətli inkişafa nail olunmuşdur. 1969-1982-ci illərdə Azərbaycanın sovet respublikaları içərisində öncül yerə keçməsi çox böyük bir hadisə idi. O dövrdə Azərbaycanda insanların dövlətçilik şüurunun möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Azərbaycan qısa zamanda ittifaq miqyasında iqtisadi baxımdan özünü təmin etməyə qadir olan respublikalar sırasına daxil olmuşdur. 1969-cu ildən sonra ölkəmizdə böyük quruculuq işləri həyata keçirilmiş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Ümummilli liderimizin mədəniyyətimizə, tariximizə dərin ehtiramının nəticəsi olaraq Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri olan insanların əzəmətli heykəlləri ucaldılmış, tarixi şəxsiyyətlərin ev-muzeyləri yaradılmışdır.

Xalqımızın böyük oğlunun Azərbaycanın sabahını düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlı gənclərin gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovet İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği də həyata keçirilirdi. Çox keçmədən ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb fəaliyyətə başladı. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Gənclər həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində davam etdirirdilər.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***“Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi”.***

1982-1987-ci illərdə, SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda da ulu öndərimiz daim Azərbaycan haqqında düşünmüş, ölkəmizin gələcəyi üçün mühüm tədbirlər həyata keçirmişdir.

Sovetlər Birliyi dövründə ümummilli liderimizin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı”.***

Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıdan, lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilməyən ümummilli liderimiz iki gün sonra, iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir. 1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ulu öndərimizin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilmiş, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülmüşdür. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi.

1990-1993-cü illərdə Naxçıvanın siyasi, mədəni, mənəvi və iqtisadi mühitindən ümummilli liderimizin quruculuq fəaliyyəti qırmızı xətlə keçir. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın, tərəqqinin Heydər Əliyev yoluna qayıdan ilk region idi. Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalq-lider birliyinin bariz təzahürü idi.

Müstəqilliyin ilk illərində hakimiyyətə yiyələnən qüvvələrin səriştəsizliyi ölkəmizi parçalanmaq, dövlətçiliyimizi itirilmək təhlükəsi qarşısında qoymuşdu. Hakimiyyət uğrunda çəkişmə Ermənistanla aparılan müharibəni də arxa plana keçirmişdi. Azərbaycan dövlətçiliyinə qənim kəsilən dairələrin fikrincə, xaotik proseslərin nəticəsi olaraq Azərbaycan parçalanmalı və nəticə etibarilə, iri dövlətlərdən asılı vəziyyətə düşməli idi. Amma onlar ən mühüm məqamı – Azərbaycan xalqının böyük inam bəslədiyi Heydər Əliyevin ətrafında birləşmək istəyini nəzərə almamışdılar. Xalq ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişini vəziyyətdən yeganə çıxış yolu kimi görürdü. Ümummilli liderimiz Heydər Əliyevə ünvanlanan müraciətlər maddi-mənəvi iztirablara məruz qalan bir xalqın, sadəcə, vəziyyətdən çıxış yolu deyildi. Bu həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək və yenə də itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi bir ümumxalq qərarı idi.

Ümummilli liderimizin 1993-cü ilin iyun ayında Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə xalqımızın itirilmiş inamı özünə qaytarılmış, ictimai-siyasi sabitliyin əsası qoyulmuşdur. Ulu öndər Heydər Əliyev həmin dövrdə deyirdi ki, ***“Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur”.***

Tarix də göstərdi ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol düzgün yoldur. Belə ki, Azərbaycanın demokratik quruculuq və inkişaf yolu milli xüsusiyyətlər və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başlandı, ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və digər uğurlar ulu öndərin dövlətçilik konsepsiyasının mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir dünya dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu.

İnkişafın Azərbaycan modelinin müəllifi olan ümummilli lider özünün zəngin bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmişdir. Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri – xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanırdı. 1994-cü ildə dünyanın ən böyük və nüfuzlu neft şirkətləri ilə Azərbaycan Respublikası arasında Xəzərin karbohidrogen ehtiyatlarının hasilatına və nəqlinə dair bu gün görülən işlərin əsası kimi “Əsrin müqaviləsi” imzalanmışdır.

1993-cü ildən başlayaraq aqrar sektorun bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulması, kolxoz və sovxozların ləğvi, həmin ictimai təsərrüfatlara məxsus torpaqların, mal-qaranın, texnikanın və başqa əmlakların əsl sahiblərinə qaytarılması kimi ciddi islahatların müəllifi də məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur. Aqrar sektorda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin olunması məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silinmişdir. Bununla yanaşı, ulu öndərin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçıları cüzi torpaq vergisindən savayı qalan digər vergilərdən azad olunmuşlar. Bütün bunlar kənd adamının çoxəsrlik arzusunun reallaşması, onun torpağın əsl sahibinə çevrilməsi demək idi. Məhz həmin islahatların nəticəsidir ki, bu gün aqrar bölmədə özəl sektorun xüsusi çəkisi getdikcə artmaqdadır.

*Ardı 2-ci səhifədə*

Ölkədə dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlanması da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. İstər bu sahədə təkmil qanunvericilik bazasının yaradılması, istərsə də dövlət proqramlarının qəbulu ulu öndərin təşəbbüsü ilə reallaşmışdır. Təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun günün tələbləri səviyyəsində yenidən qurulması, iqtisadiyyata investisiyaların, o cümlədən xarici sərmayələrin cəlb edilməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynamışdır.

Bu gün boylanıb dünənə baxanda düşünürük: xalqımız yaşadığımız o ağır günlərdə görkəmli dövlət xadiminin ətrafında sıx birləşməsəydi, bu gün Azərbaycan adlı bir ölkə də olmayacaqdı. Məhz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf və yüksəliş yolu nəticəsində qısa müddətdə ölkə müstəqilliyin itirilməsi təhlükəsindən xilas olmuş, dövlət çevrilişi cəhdlərinin qarşısı alınmış, bütün sahələrdə dinamik inkişafa səbəb olan mühüm islahatlar, o cümlədən gələcəyə hesablanmış neft strategiyası həyata keçirilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası sonrakı illərdə ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, respublikamız bütün sahələrdə uğurlu inkişaf yoluna çıxmış və bu yolla inamla daha xoş sabahlara doğru irəliləyir.

Ulu öndərimizin müəyyənləşdirdiyi sosial-iqtisadi strategiya, quruculuq xətti bu gün ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da layiqincə davam etdirilir. Bu səbəbdəndir ki, qədim diyarımız on illərə bərabər inkişaf yolu keçərək müasirliyə qovuşmuşdur. Həyatın bütün sahələrində böyük uğurlar qazanılmışdır. Bu uğurların təməlində Heydər Əliyev yoluna böyük inam, Heydər Əliyev ideyalarına sədaqət dayanır.

Ulu öndərin əbədiyyətə qovuşmasından ötən 12 illik zaman kəsiyi bizə bu fenomen şəxsiyyətin milli dövlətçilik tariximizdəki yerini və rolunu daha dolğun dəyərləndirmək imkanı verir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-mənəvi yüksəlişə nail olunması kimi iftixar doğuran şanlı epoxanı əhatə edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun dediyi kimi: ***“Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!”***

**“Şərq qapısı”**

## Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilmişdir

*Dekabrın 9-da Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.*

Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhuna dualar oxunmuşdur.

Tədbirdə Baş konsul Əli Əlizadə çıxış edərək ulu öndər Heydər Əliyevin mənalı ömür yoluna nəzər salmış, dahi rəhbərin siyasi fəaliyyətinin Azərbaycanın ən yeni tarixində mühüm mərhələ təşkil etdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, ümummilli liderimiz istər Sovet İttifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dövrlərdə Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlər göstərmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının və təcavüzkar hərəkətlərinin davam etdiyi, daxili çəkişmələrin baş verdiyi bir dövrdə ulu öndər itirilməkdə olan dövlət müstəqilliyini qoruyub saxlamış, qüdrətli Azərbaycan dövlətini yaratmışdır. Torpaqlarımızın işğalının qarşısının alınması, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması da ulu öndərimizin xalqımız qarşısındakı misilsiz xidmətlərindəndir. Bu gün ulu öndər



Heydər Əliyev ideyalarının həyata keçirilməsi Azərbaycanı sürətli sosial-iqtisadi inkişafa və sabitliyə qovuşdurmuşdur.

Baş konsul Azərbaycan-İran əlaqələrinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmiş, bu gün qonşu ölkələr arasındakı münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır.

Sonra mərasimdə ehsan süfrəsi açılmışdır.

Anım mərasimində İran İslam Respublikası Şərqi Azərbaycan Vilayəti valisinin müavini, vilayətin və valiliyin dövlət rəsmiləri, İranın Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin əməkdaşları, Türkiyənin Təbrizdəki Baş Konsulluğunun işçiləri, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

## Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs təşkil olunub

***Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə 218 ümumtəhsil məktəbi ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs təşkil olunub.***

“Heydər Əliyev dühası yenilməzdir” mövzusunda keçilən açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə muzey barədə şagirdlərə ətraflı məlumat verib. Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb. Muzey həmin ilin may ayının 10-dan fəaliyyət göstərir.

Qeyd olunub ki, Heydər Əliyev Muzeyi müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı olan ulu öndərimizin ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir. Muzey ekspozisiya zalından və kitabxanadan, muzey fondundan ibarətdir. Burada kitabxana yaradılıb, ümummilli liderimiz haqqında çəkilmiş filmləri nümayiş etdirmək üçün lazımi avadanlıqlar, kompüter dəstləri quraşdırılıb. Həmçinin muzeyin internet saytı yaradılıb.

“Muzey fondunda ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 588 ədəd eksponat toplanıb”, – deyən Ramil Orucəliyev bildirib ki, bu eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Dahi şəxsiyyətin mənalı həyatı və zəngin siyasi fəaliyyəti barədə danışan Heydər Əliyev Muzeyinin direktoru bildirib ki, ulu öndərimiz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri olub. 1976-cı ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilən görkəmli dövlət xadimi Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunub.



Ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib.



Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb



Şərur rayon Aşağı Yaycı kənd tam orta məktəbi



Şahbuz rayon Kükü kənd tam orta məktəbi

Bildirilib ki, dahi şəxsiyyət Heydər Əliyev doğma xalqını düşdüyü bəlalardan xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıdıb, əvvəlcə Bakıya, sonra isə Naxçıvana gəlib. Həmin ildə də Azərbaycan Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilib. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin on ikinci çağırış birinci sessiyasında xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətçiliyi üçün tarixi qərarlar qəbul olunub. Həmin sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılıb, Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı Ali Məclis adlandırılıb, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” qərar qəbul edilib. Həmin qərarlar, sessiyaya gətirilən üçrəngli bayraq, 3 sentyabr 1991-ci ildə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında qərar bu gün muzeydə nümayiş etdirilir.

Qeyd edilib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyası təsis edilib və ulu öndərimiz partiyanın sədri seçilib. 1993-cü ilin may-iyununda müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbi ilə ayağa qalxıb. Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilib. Həmin gündən başlayaraq Azərbaycanda dövlət quruculuğu prosesinə start verilib, ölkənin parçalanmasının, yox olmasının qarşısı alınıb. Məhz buna görə də 15 İyun Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olub.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülüb. O, 1979-cu və 1983-cü illərdə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunub.

Vurğulanıb ki, Azərbaycanın 40 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəyə rəhbərlik etdiyi illər ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıb, müstəqilliyimizin əbədiliyini təmin edib.

Qeyd edək ki, interaktiv dərs Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin Naxçıvan Muxtar Respublikasında anılması ilə bağlı Tədbirlər Planına əsasən keçilib.

**Rauf ƏLİYEV**

# Müasir inkişafın reallıqları və üfüqləri

*Dövlət müstəqilliyimizin iyirmi beşinci ilinin böyük reallıqları Azərbaycan Respublikasının müasir inkişafının mühüm nəticələrini və geniş imkanlarını aydın surətdə təsəvvür etməyə, təhlil edib dəyərləndirməyə tam əsas verir. Müstəqil Azərbaycan dövləti qısa müddətdə inkişaf etmiş ölkələrin sırasında dayanmağa qadir olduğunu isbat etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik təliminin məqsədyönlü şəkildə, ardıcıllıqla və yaradıcılıqla həyata keçirilməsi ölkəmizin çoxəsrlik inkişafında yeni tarixi epoxanın formalaşdırılması ilə nəticələnmişdir.*



Heydər Əliyev epoxası – Azərbaycan tarixinin yarım əsrə yaxın davam etməkdə olan bir dövrünün yeni inkişafının böyük reallıqlarının ümumiləşmiş yekunu və gələcək uğurlarının hərəkətverici qüvvəsi deməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqla hakimiyyətin vəhdətinə, ümumxalq etimadına əsaslanan düşünülmüş dövlət idarəçiliyi siyasəti ölkəmizin irəliyə doğru və hərtərəfli inkişafında xüsusi bir mərhələnin yaranmasını təmin etmişdir. Dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, cəmiyyət həyatının müasirləşdirilməsi, çoxcəhətli böyük inkişafın gerçəkliyə çevrilməsi, Azərbaycan regionlarının sürətli yüksəlişinə nail olunması bu mərhələnin mühüm reallıqlarını özündə əks etdirir. Prezident İlham Əliyevin Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına səfəri zamanı – 1 dekabr 2015-ci il tarixində geniş ictimaiyyət qarşısında ifadə etdiyi aşağıdakı fikirlər müstəqil dövlətimizin keçdiyi şərəfli yolun qanunauyğun nəticəsinin ümumiləşmiş ifadəsi kimi səslənir: “Azərbaycanda quruculuq və inkişaf sürətlə gedir... Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır. Buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır. Bu gün Azərbaycan iqtisadi inkişaf templərinə görə dünya miqyasında yenə də birincilər sırasındadır. Bunu statistika göstərir və bu, mötəbər beynəlxalq maliyyə qurumlarının hesabatlarında qeyd edilir. Əminəm ki, nəzərdə tutulmuş bütün proqramlar icra olunacaq, o cümlədən Naxçıvanda quruculuq, inkişaf davam etdiriləcəkdir”.

Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki sürətli və hərtərəfli yüksəlişi Azərbaycan dövlətinin müasir inkişafının real təzahürlərindən, mühüm göstəricilərindən biridir. Müstəqilliyin başlanğıc illərində görkəmli dövlət xadimi Heydər Əliyevin işğaldan, böyük təhlükələrdən xilas edib, müasir inkişaf yoluna çıxardığı, gələcək inkişafının möhkəm əsaslarını yaratdığı Naxçıvan Muxtar Respublikası çətin blokada şəraitində olmasına baxmayaraq, böyük quruculuq proqramlarının əzmlə həyata keçirilməsi ilə cavab verməyin nümunəsini göstərir. Muxtar respublikada müstəqil dövlətçiliyimizin siyasi-ideoloji mövqeyinin, Azərbaycançılıq ideyalarının daha da inkişaf etdirilərək möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də sistemli və ardıcıl xarakteri ilə səciyyələnir, yeni nəsillərin formalaşmasına əhəmiyyətli töhfə verir. Bütün bunlara görə Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”kı 2 dekabr 2015-ci il tarixli Sərəncamında deyildiyi kimi, “...zəngin mədəniyyəti, qədim tarixi, dövlətçilik ənənələri və yüksək potensialı olan Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutur, ölkəmizin inkişafında mühüm rol oynayır”.

Dövlət başçısı İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına növbəti səfəri qədim diyarın müstəqil ölkəmiz qarşısındakı böyük hesabatının parlaq ifadəsi olmuşdur. Mühüm əhəmiyyətə malik olan bu səfər Naxçıvan Muxtar Respublikasının inkişafında davamlı ənənələrin, dayanıqlı inkişafın, irəliləyişin və müasirləşmənin yeni bir səviyyəsini nümayiş etdirir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 12 il ərzində ardıcıl olaraq muxtar respublikaya etdiyi səfərlərin məntiqli davamı sayılan 1 dekabr 2015-ci il tarixli səfəri geniş mənada ölkəmizin müasir inkişafının real məzmununu, yüksək templərini özündə əks etdirir. Rəsmi açılışı həyata keçirilmiş Naxçıvan Muxtar Respublika Xəstəxanası, Nehrəm kənd 2 saylı tam orta məktəbi, Naxçıvan şəhər 2 saylı musiqi məktəbi Azərbaycanın bu bölgəsində illərdən bəri formalaşmış sosial-maarifçi layihələrin gerçəkləşdirilməsinə üstünlük verilməsi prinsipinin uğurla davam etdirilməsinin yeni bir göstəricisidir. Qısa müddətdə Naxçıvan Muxtar Respublikasında istifadəyə verilmiş müasirtipli səhiyyə və təhsil müəssisələri keyfiyyətli inşasına və müasir texnologiyalarla təchiz edilməsinə görə nümunə sayılmağa layiqdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avadanlıqlarına görə ən yüksək standartlara cavab verən, xarici görünüşü etibarilə “memarlıq əsəri” kimi qiymətləndirdiyi 8 mərtəbəli Naxçıvan Muxtar Respublika Xəstəxanasının xidmət üçün istifadəyə verilməsini regionun sosial həyatında mühüm hadisələrdən biri kimi səciyyələndirmişdir. Bu parlaq hadisənin fonunda Naxçıvan səhiyyəsinin bir əsr ərzində necə inkişaf etdiyini real şəkildə təsəvvür etmək üçün 1923-cü ildə Naxçıvan Muxtar Respublika Xəstəxanasında həkim-cərrah vəzifəsində çalışmış, sonralar Azərbaycan təbabətinin rəmzi kimi qəbul edilən akademik Mustafa Topçubaşovun xatirələrindən seçdiyim aşağıdakı parçanı oxucuların diqqətinə çatdırmağı faydalı hesab edirəm: “Ordinatura müddətinin bitdiyinə görə 1922-ci ilin sonlarında Azərbaycan Xalq Səhiyyə Komissarlığı tərəfindən işləmək üçün Naxçıvana göndərildim... Naxçıvanda məni ilk səhiyyə komissarı Əlimirzə Abbasov qəbul etdi və o zaman yeganə olan xəstəxanada cərrahlığa başladım. Xəstəxana Naxçıvan xanının evində ikimərtəbəli bir binada yerləşirdi... Bu xəstəxananın tərkibində olan 25 çarpayıdan 10-u cərrahi xəstələr üçün nəzərdə tutulmuşdu. Bunlar da mənə tapşırılmışdı. Hər bir cərrahi şöbə üçün səciyyəvi olan operasiya və sarğı otağı bir otaqda yerləşdirilmişdi. Xəstəxananın birinci mərtəbəsində ambulator xəstələr qəbul olunurdu. Burada Məmmədov familiyalı yeganə həkim var idi ki, o da terapevt vəzifəsində işləyirdi. Səhiyyə komissarı Əlimirzə Abbasov eyni zamanda xəstəxananın baş həkimi və cərrahı idi. Əlimirzə Abbasov Kiyev universitetinin tibb fakültəsini bitirdikdən sonra vətəni Naxçıvana qayıtmış və burada arasıkəsilmədən, gecə-gündüz fədakarcasına çalışıb, xalq arasında bilikli həkim və bacarıqlı təşkilatçı kimi tanınmışdı... Xəstəxana üçün lazımi dərmanları... Naxçıvan duzuna satırdılar... Bir neçə nəfərdən ibarət köməkçi heyət (tibb bacısı, sanitar və sair) hazırlanmışdısa da, rentgen kabinəsi işləmirdi, laboratoriya, demək olar ki, yox idi... Təcili yardım təşkil olunmadığından bu işi xəstəxana görürdü”.

Bütövlükdə ölkəmizdə olduğu kimi, Naxçıvanda da səhiyyənin inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə böyük dönüş yaranmışdı. Bununla belə, ötən dövrün və dəyişən zamanın sosial siyasətdə meydana çıxardığı müasir tələbat Naxçıvan Muxtar Respublikasında da səhiyyənin yenidən qurulması zərurətini irəli çıxarmışdır. Bu zəmində son on ildə muxtar respublikanın bütün rayonlarında ən yeni texnologiya ilə təchiz edilmiş müasirtipli xəstəxanalar tikilib istifadəyə verilmiş, regionda nümunəvi Müalicə-Diaqnostika Mərkəzi yaradılmışdır. Naxçıvan Dövlət Universitetində 2002-ci ildən fəaliyyətə başlayan Tibb fakültəsi xəstəxanaların yüksəkixtisaslı həkim kadrları ilə təmin edilməsində mühüm rol oynamışdır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin TEMPUS proqramı çərçivəsində Avropa ali məktəbləri ilə yaratdığı əlaqələr, Türkiyə Cümhuriyyətinin xəstəxanalarında təşkil etdiyi stajirovkalar, bu ali məktəbin klinikasının təşkili və 2014-cü ildə həmin universitetin xəstəxanasının müasir texnologiyalarla təchiz edilmiş tibb ocağına çevrilməsi yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına şərait yaratmışdır. Bütün bunların nəticəsində Prezident İlham Əliyevin muxtar respublika xəstəxanasının yeni kompleksinin açılışı mərasimində bəyan etdiyi kimi, artıq Naxçıvanda müasir səhiyyə infrastrukturunun yaradılması başa çatmışdır.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında maarifçilik hərəkatının inkişaf etdirilməsi və müasir təhsil infrastrukturunun yaradılması istiqamətində də mühüm nailiyyətlər qazanılmışdır. Dövlət başçısının bu regiona səfərlərinin, demək olar ki, hamısında elm və təhsillə əlaqədar yeni obyektlərin açılışları olmuşdur. Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının, konservatoriyasının, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun, Şərur rayonundakı Yengicə, Şahbuz rayonundakı Ayrınc kənd orta məktəblərinin və başqa orta təhsil müəssisələrinin qırmızı lentini kəsən dövlət başçısının indiki səfəri zamanı 2 təhsil ocağının – Naxçıvan şəhər 2 saylı musiqi məktəbinin və Nehrəm kənd orta məktəbinin yeni binalarının açılışını həyata keçirməsi muxtar respublikada bu istiqamətdə uğurla davam etdirilən ardıcıl siyasətin daha bir nümunəsi olmuşdur. Bir az əvvəl Naxçıvan Musiqi Kollecinin yaradılmasının 40 illiyini təntənə ilə qeyd edən mədəniyyət cəbhəsi üçün klassik üslubda dördmərtəbəli müasir binanın təqdim edilməsi regionda mədəni mühitin inkişaf etdirilməsində daha bir əhəmiyyətli addımdır. Muxtar respublikanın ən iri yaşayış məntəqələrindən biri olan Nehrəm kəndində 990 şagird yeri olan, kompüter sinifləri və laboratoriyalar, hərbi kabinet və elektron lövhələrlə təchiz edilmiş orta məktəbin istifadəyə verilməsi dövlətimizin təhsil siyasətinin ardıcıllığını nümayiş etdirən mühüm faktlardandır. Əsası 1885-ci ildə açılmış Nehrəm normal məktəbi ilə qoyulmuş, hələ XIX əsrin axırlarında 9 nəfər qızın təhsilə cəlb edilməsi ilə məktəb tarixinə qiymətli səhifələr əlavə etmiş bu kənddə iki orta məktəbdə iki min nəfərə yaxın şagirdin təhsil alması, burada ali məktəblərə qəbul olan məzunların ilbəil artması geniş mənada regiondakı maarifçi mühitin mühüm göstəricilərindəndir. Yeni tikilmiş məktəblərin, o cümlədən Nehrəm məktəbinin muxtar respublikada fəaliyyət göstərən 221 təhsil ocağını birləşdirən vahid elektron tədris şəbəkəsinə qoşulması təhsilin yeni simasını nümayiş etdirir. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası üzrə vahid elektron təhsil şəbəkəsinin təşkili və tənzimlənməsi ölkəmizin məktəb hərəkatında yeni və əhəmiyyətli hadisədir. Bundan başqa, orta məktəblərin muxtar respublikadakı muzeylərlə, Bayraq Meydanı ilə davamlı olaraq canlı bağlantı qurmaq, telekörpü yaratmaq imkanına malik olması gənc nəslin elmi dünyagörüşü ilə yanaşı, vətənpərvərlik tərbiyəsinin də möhkəmləndirilməsinə uğurla xidmət edən düşünülmüş tədbirdir.

Ölkəmizin müasir sənayeləşmə hərəkatına Naxçıvan Muxtar Respublikası da öz töhfələrini verir. Naxçıvan şəhərinin ətrafında salınmış sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, ixrac yönümlü məhsulları da istehsal etməsi ilə səciyyələnir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif vaxtlarda açılışında iştirak etdiyi Naxçıvan Avtomobil Zavodu, Badamlı Zavodu, Sement Zavodu kimi iri müəssisələr artıq ölkə bazarlarında özünəməxsus mövqeyə malikdir. Hazırkı səfərdə də yerli sənaye və energetika yönümlü obyektlərin istifadəyə verilməsi ölkəmizin sənayeləşmə hərəkatında Naxçıvanın fəal surətdə iştirakını nümayiş etdirir. Ərazisi 9 kilometrlik sahəni əhatə edən yeni Naxçıvan Sənaye Kompleksi ölkə əhəmiyyətli mühüm iqtisadi hadisədir. Özündə 4 zavodu birləşdirən Naxçıvan Sənaye Kompleksi blokada şəraitində fəaliyyət göstərən muxtar respublikada tikinti və quruculuq sahəsində olan böyük tələbatı tam şəkildə ödəməyə imkan verəcəkdir. Eyni zamanda həmişə ümumi təsəvvürdə istifadəyə yararlı olmayan səhra tipli şoran torpaq zonası kimi qəbul edilən Böyük duz çölündə Naxçıvan Sənaye Kompleksinin salınması ilə məlum təsəvvürlər dəyişdirilmiş və regionda şəhərsalmanın da imkanları genişləndirilmişdir. Naxçıvan Sənaye Kompleksini əhatə edən zavodların yerli xammalla təmin olunması inşaat sektorunda qiymətlərin də, daşımaların da rəqabətədavamlı olmasına imkan yaradır. Hazırda Naxçıvan Sənaye Kompleksinin ərazisinin ətrafında geniş yaşıllıq zonasının yaradılması sağlam ekoloji mühitin qorunub saxlanılması baxımından zamanı qabaqlayan tədbirlərdəndir. Artıq yaxın əraziləri əhatə edən və biri digərini tamamlayan Naxçıvan Şəhər Gömrükxanası, qədim duz mədənləri, Duzdağ Fizioterapiya Mərkəzi, Duzdağ hoteli, Müasir Sənaye Kompleksi və yaşıllıq zonası Naxçıvanda yeni sənaye şəhərinin formalaşdığını göstərir. Əsas konturları görünən Naxçıvan sənaye şəhəri Naxçıvan Muxtar Respublikasının xəritəsində yeni bir ünvana çevrilməkdədir. Bu, bütövlükdə yeni Azərbaycanın sənayeləşmə hərəkatının da müasir inkişaf ritmlərini özündə əks etdirir. Naxçıvan Beynəlxalq Hava Limanının aeroport quruculuğunun yeni modeli səviyyəsində təqdim olunan “Şərq terminalı”nın timsalında açılan geniş imkanlar muxtar respublikadakı müasir inkişafı tamamlayır. Yüksək keyfiyyətlə yenidən qurulan Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu Naxçıvan Muxtar Respublikasında son onillikdə salınan yeni magistral yolların böyük şəbəkəsinə qovuşaraq qədim diyarı inkişafın yeni hədəflərinə doğru aparır.

Blokada şəraitində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının həyatında müstəqillik dövrünün ən mühüm hadisəsi regionun enerji təchizatı ilə tam təmin edilməsidir. Bu istiqamətdə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən əsası qoyulmuş, möhkəm təməlləri atılmış böyük layihələr muxtar respublikada uğurla həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ildə məşəlini yandırdığı Naxçıvan qazı, açılışında iştirak etdiyi Heydər Əliyev Su Anbarı, Biləv və Arpaçay Su Elektrik stansiyaları, Naxçıvan Modul Elektrik Stansiyası muxtar respublikada yeni inkişafın təmin edilməsinin əsas hərəkətverici qüvvəsidir. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının enerji təchizatı ilə bağlı obyektlərin hamısının istifadəyə verilməsində şəxsən iştirak etməsi, tapşırıq və tövsiyələrini verməsi ölkə miqyasında prioritet inkişaf istiqamətlərindən biri kimi müəyyən edilmiş strateji əhəmiyyətə malik bu mühüm sektorun əsaslı şəkildə yenidən qurulmasına göstərilən dövlət qayğısı və dəstəyinin bariz nümunəsidir.

İl ərzində günəşli günlərinin sayına görə, bəlkə də, dünyada ən üstün imkanlara malik olan Naxçıvan diyarında Günəş Elektrik Stansiyasının yaradılması yeni tarixi epoxada sənayeləşmənin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsinə müasir yanaşmaların real təzahürüdür. Naxçıvan Günəş Elektrik Stansiyası – günəşli diyarın həm də enerji mənbəyi olduğunu nümayiş etdirir. Məsuliyyətli coğrafi məkanda yerləşən Naxçıvan Muxtar Respublikasının günəş enerjisi ilə təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qüdrətini göstərən əhəmiyyətli hadisələrdəndir. Gün ərzində fasilələrlə işıq üzü görən, həmin çətin günləri böyük ümidlə yaşayan insanlar üçün bugünkü mənzərə əfsanəyə bərabərdir. Qeyd olunan həmin gərgin vaxtlarla müqayisədə hazırda Naxçıvanın elektrik enerjisi ixrac edən bir regiona çevrilməsi ölkəmizin müasir inkişafının mühüm göstəricilərindən biri sayılmağa layiqdir. Prezident İlham Əliyevin Naxçıvan Günəş Elektrik Stansiyasını işə salması ölkəmizdə yerli ehtiyatlar hesabına alternativ enerji sektorunun inkişafına verilmiş startın da daha bir əks-sədasıdır.

Prezident İlham Əliyevin 1 dekabr 2015-ci ildə Naxçıvan Muxtar Respublikasına səfəri regionda həyata keçirilmiş böyük layihələrin, yeniləşmələrin əhəmiyyətli nəticələrinin diqqət mərkəzinə çəkilməsinə imkan yaratmışdır. Və yeni tarixi səfər zamanı regionda baş vermiş əsaslı yeniliklər, böyük dəyişikliklər özünün dövlət səviyyəsində layiqli qiymətini almışdır. Ölkə Prezidentinin gerçəkləşdirilmiş böyük yeniləşmələrə verdiyi yüksək qiymətdə də aparılan çoxşaxəli, genişmiqyaslı və məqsədəuyğun işlərin əhəmiyyəti xüsusi olaraq nəzərə çarpdırılır: “Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvanın rəhbərliyi çox uğurla, səmərəli işləyir. Naxçıvanın siması dəyişir. Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə, dünya miqyasında ən abad şəhərlərdən biridir. Təkcə şəhərdə yox, bütün bölgələrdə də quruculuq, inkişaf işləri gedir”.

Bütün bunlar, qazanılan böyük nailiyyətlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin real bəhrələridir. Əldə olunan mühüm nəticələr, nümayiş etdirilən müasir səviyyə yeni Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının gerçək simasıdır. Bu, müstəqil Azərbaycan dövlətinin seçdiyi sınaqlardan çıxmış Heydər Əliyev yolunun təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət ölkəmizə və xalqımıza daha böyük gələcəyin real təminatıdır. Müasir inkişafın aydın göstəriciləri olan böyük dəyişikliklər həm də ölkəmizin gələcək inkişafının geniş üfüqlərinə də gur işıq salır. Azərbaycan sabahının üfüqlərində xalqımızın daha xoşbəxt gələcəyi və möhkəm, qüdrətli, əbədi olan müstəqil dövlətimizin əzəmətli obrazı canlanır.

Müstəqil Azərbaycan Respublikası daha işıqlı sabahlara doğru inamla yol getməkdə davam edir.

**İsa HƏBİBBƏYLİ**
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik*

*“Azərbaycan” qəzeti*
*11 dekabr 2015-ci il*

***Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkəmizin müdafiəsi ilə bağlı mühüm tədbirlər həyata keçirilmişdir. Müdrik rəhbərin səyləri nəticəsində hərbi təhsil sahəsində köklü islahatlar aparılmış, yeni hərbi məktəblər fəaliyyətə başlamışdır. Ulu öndərimizin 13 mart 1998-ci il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılmışdır.***



# Heydər Əliyev adına Hərbi Liseydə vətənə sədaqətlə xidmət edəcək gənclər yetişdirilir

1999-cu ilin oktyabr ayında muxtar respublikanın 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn dahi şəxsiyyət Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yeni tədris korpusunun təntənəli açılışı mərasimində demişdir: *“Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır. ...Hərbi liseyin burada filialının yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, Sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi”.*

2001-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının ilk buraxılışının 50 nəfər məzunundan 49-u ali hərbi məktəblərə qəbul olunmuşdur. 2002-ci ilin iyun ayında muxtar respublikaya növbəti səfəri zamanı ulu öndər Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialını da ziyarət edərək qeyd etmişdir ki, zabit-müəllim heyəti qarşısında böyük və məsuliyyətli vəzifələr durur. Onlar təkcə öz peşələrilə bağlı deyil, başqa lazımlı sahələrdə də biliklərini artırmalı və bu bilikləri layiqli kadrların hazırlanmasına yönəltməlidirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin “Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında” 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil hərbi lisey yaradılmışdır.



Artıq 11 ildir, müstəqil fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin məzunları içərisində hazırda Silahlı Qüvvələrimizin müxtəlif qoşun növlərində xidmət edən yüzlərlə zabit var. Muxtar respublikada belə bir hərbi liseyin fəaliyyət göstərməsi ildən-ilə hərb sənətinə marağı olanların sayının artmasına səbəb olmuşdur. Hər il muxtar respublikamızın bölgələrindən, həmçinin ölkəmizin müxtəlif regionlarından yüzlərlə gənc-yeniyetmə adıçəkilən məktəbə qəbul olunmaq üçün sənəd verir. Ötən dövrdə liseyi 2251 nəfər bitirmişdir. Təkcə 2015-2016-cı tədris ilində buraya 977 nəfər sənəd vermişdir ki, bunlardan da 255 nəfəri kursant adını qazanmışdır. Hazırda burada 671 kursant təhsil alır. Onların təlim-tərbiyəsi ilə 90-a yaxın müəllim məşğul olur. Liseyin məzunları ölkəmizin müxtəlif ali hərbi məktəblərində, 32 nəfər isə Rusiya və Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirirlər.

Qeyd edək ki, hərbi liseydə kursantların bilik və bacarıqlara yiyələnməsi üçün hərtərəfli şərait yaradılmışdır. Ötən dövrdə kursant yataqxanası və tədris korpusu müasir tələblər səviyyəsində qurulmuşdur. Yataqxana binasında kursantlar üçün müasir məişət şəraiti yaradılmış, yeni yataq dəstləri qoyulmuşdur. Tədris korpusunda yaradılmış müasir fənn kabinələri, müxtəlif tədris avadanlıqları ilə təmin edilmiş siniflər, kitabxana tədrisin yüksək keyfiyyətlə aparılmasına imkan verir. Liseydə kursantların vətənpərvərlik tərbiyəsinə xüsusi fikir verilir, onlara tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hislərinin aşılanması daim diqqət mərkəzində saxlanılır. Liseyin kursantları keçirilən fənn olimpiadalarında fəal iştirak edirlər. 2014-2015-ci tədris ilində kursantlardan 83 nəfəri bu cür olimpiadalarda iştirak etmiş, onlardan 3 nəfəri Azərbaycan Respublikası üzrə final mərhələsinə çıxmışdır. Kursantlardan Ənvər Quliyev riyaziyyat fənni üzrə gümüş medala, Gündüz Babazadə isə fizika fənni üzrə bürünc medala layiq görülmüşlər.

Liseydə hamı tərəfindən müqəddəs sayılan yerlərdən biri də burada yaradılmış Heydər Əliyev muzeyidir. 2005-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev liseydə olarkən muzeydəki rəy kitabında öz ürək sözlərini belə ifadə etmişdir: *“Əziz kursantlar, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq. Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin”.*



*“...Gənclərin yaxşı təhsil alması və peşə sahibi olması ölkənin gələcək inkişafını şərtləndirən başlıca amildir. Hər bir gənc harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq, mütləq bir peşə öyrənməlidir. Ümummilli liderimiz isə tövsiyə edirdi ki, zabit olmaq, vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdə dayanır. Çünki zabit adını daşımaq böyük məsuliyyətdir və Azərbaycan Ordusunun zabiti kimi xalqımıza və vətənimizə sədaqətlə xidmət etmək qarşınızda duran əsas vəzifədir. Bundan sonra da yaxşı təhsil almalı, hərb sənətinə dərindən yiyələnməli, bilik və təcrübənizi artırmalısınız. Gələcəkdə harada xidmət etməyinizdən asılı olmayaraq, unutmamalısınız ki, siz müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan hərbi liseyin məzunlarısınız. Bu adı daim uca tutmalı, onu nümunəvi xidmətinizlə doğrultmalısınız”.*

Bu il iyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2015-ci il buraxılışı münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kursantlara verdiyi bu tövsiyələri zabit peşəsinə verilən yüksək dəyərin, eyni zamanda Heydər Əliyev yoluna sədaqətin nümunəsi kimi qiymətləndirmək olar. Liseydə olarkən burada təhsil alan kursantların da bu yola sadiq olacaqlarını onlarla apardığımız söhbətdən aydın görmək mümkün idi. Kursantlardan Pərvin Abdullazadə, Anar Məmmədov, Məhəmməd İsmayılzadə Vətəni qorumaq kimi bir peşəni seçdiklərinə görə fəxr etdiklərini dilə gətirdilər. Təhsil aldıqları ümumən ulu öndər Heydər Əliyevin adını daşımasını isə onlara böyük qürur hissi yaşatdığını bildirdilər. Həqiqətən də, dahi şəxsiyyətin adını daşıyan hərbi məktəbin məzunu olmaq, üçrəngli bayrağımızın hakim olduğu istənilən yerdə Vətənə sədaqətlə xidmət etməyin şərəfini burada təhsil alan kursantların dilindən eşitmək bizim üçün qürurverici idi. Çünki bu liseydə ümummilli liderimizin qurub-yaratdığı müstəqil Azərbaycanın qoruyucuları yetişir.

**✍ Səbuhi HƏSƏNOV**

---

# Azərbaycan səhiyyəsində yeniliklərə dair elmi-praktik konfrans

***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Azərbaycan səhiyyəsində yeniliklər” mövzusunda tədbir keçirilib.***



Elmi-praktik konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov bildirib ki, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm tərkib hissələrindən biridir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə, uğurlu strategiyaya əsaslanan bu alternativsiz inkişaf yolu ölkəmizin hər bir bölgəsində diaqnostika-müalicə mərkəzlərinin, xəstəxanaların tikilərək istifadəyə verilməsində, tibb müəssisələrinin müasir səhiyyə avadanlıqları ilə təmin edilməsində əsas rol oynayır. Muxtar respublikamızda da əhalinin sağlamlığının qorunması, tibbi xidmət səviyyəsinin yüksəldilməsi, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir.

Səhiyyə naziri qeyd edib ki, bugünkü tədbirin keçirildiyi Naxçıvan Muxtar Respublika Xəstəxanası bölgədə analoqu olmayan səhiyyə müəssisələrindən biridir. 600 nəfərə yaxın tibbi heyətin çalışdığı xəstəxananın istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatıb. 8 mərtəbəli binada tibbin ən son yenilikləri tətbiq olunur. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 300 çarpayılıq olan xəstəxanada 14 stasionar şöbə fəaliyyət göstərir.

Müstəqillik illərində muxtar respublikada 220-dən artıq səhiyyə müəssisəsinin tikilib istifadəyə verilməsi, onların lazımı tibbi avadanlıqlarla və ixtisaslı kadrlarla təmin olunması Naxçıvan səhiyyəsinin tamamilə müasirləşdirilməsinə səbəb olub. İndi əsas diqqət həkimlərimizin peşə bacarıqlarının artırılmasına, müasir tibbi avadanlıqlardan daha səmərəli istifadə etməklə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə yönəldilib. Bu sahədə Mərkəzi Neftçilər Xəstəxanasında Rəşad Mahmudovun başçılıq etdiyi Ürək və damar xəstəlikləri şöbəsi ilə qarşılıqlı əlaqələr öz faydasını verməkdədir.

Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri, Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin müdiri, Milli Məclisin deputatı, tibb elmləri doktoru Rəşad Mahmudov səhiyyənin modernləşdirilməsi, infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması və ən müasir avadanlıqlarla təchiz edilməsi, səhiyyənin informasiyalaşdırılması, bu sistemin yeni dövrün tələblərinə uyğunlaşdırılmasının əhalinin sağlamlığının etibarlı təminatına geniş imkanlar açdığını, quruculuq işləri sırasında mühüm yer tutduğunu bildirib. Naxçıvanda ötən əsrin 90-cı illərində digər sahələr kimi, səhiyyədə də yaranmış acı mənzərələri xatırladan Rəşad Mahmudov bu gün bütövlükdə muxtar respublikanın əsl inkişaf və tərəqqi yolunda olduğunu vurğulayıb.

Sonra Mərkəzi Neftçilər Xəstəxanası Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi “Azərbaycan səhiyyəsində transplantasiyanın müasir aspektləri”, Urologiya şöbəsinin həkim-cərrahı, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan “Laparoskopik və robotik uroloji cərrahiyyə”, Otorinolarinqologiya şöbəsinin həkim-cərrahı Tural Hüseynov “Azərbaycan səhiyyəsində koxlear implantasiya və onun gələcək perspektivləri” mövzularında məruzələr edilib.

Fasilədən sonra öz işini davam etdirən konfransda Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin müdiri Rəşad Mahmudovun, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-kardioloqu Nail Mehbalıyevin, mərkəzin həkim-cərrahı İntiqam Fətullayevin müxtəlif mövzularda məruzələri dinlənilib, videosüjetlər, cərrahiyyə proseslərindən görüntülər nümayiş etdirilib.

Tədbirdə tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə ölkə başçısının tapşırıqlarının, dövlət proqramlarının xüsusi rolundan bəhs olunub, onların icrasının təmin edilməsi hər bir həkim və tibb işçisinin mühüm vəzifələri kimi dəyərləndirilib.

Sonda müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 932